# COP29 Azərbaycanın növbəti qlobal uğuru olacaq

Azərbaycan evsahibliyi etdiyi bütün beynəlxalq tədbirlər kimi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını da (COP29) yüksək səviyyədə keçirəcək. Əlbəttə ki, ölkəmiz COP29-un Bakıda keçirilməsinə dəstəklə bağlı etimadı doğruldacaq. Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində nail olduğumuz bu beynəlxalq etimad bizi növbəti uğura doğru aparacaq.

Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Kamilə Əliyeva deyib ki, dünya dövlətləri tərəfindən COP29-un gələn il Azərbaycanda keçirilməsinə dair qərar qəbul edilməsi ölkəmizə qarşı olan böyük hörmətin və etimadın göstəricisidir. Bu bir daha sübut edir ki, Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu günbəgün artır. Azərbaycanın müstəqil siyasət yürütməsi, beynəlxalq hüququn norma və prinsiplərinə daim hörmətlə yanaşması, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi bizə olan etimadı artırıb. Prezident İlham Əliyev COP29-la bağlı keçirilən



müşavirədə son dövrlər Azərbaycanın qlobal nüfuzunun daha da artdığını, ölkəmizin ən mötəbər tədbirlərə uğurlu evsahibliyi etdiyini vurğulayıb.

Deputat qeyd edib ki, COP29-a Bakının evsahibliyi etməsinin böyük siyasi əhəmiyyəti var: "Qarabağda antiterror tədbirlərinin həyata keçirilməsindən qısa müddət sonra belə mötəbər tədbirin Bakıda keçirilməsi barədə qərar qəbul edilməsi dünya dövlətlərinin Azərbaycana dəstəyinin bariz nümunəsidir. Beynəlxalq ictimaiyyət Azərbaycanın qələbəsini qəbul edir, haqlı mövqeyini dəstəkləyir. Hətta Ermənistan da bu reallığı qəbul edərək COP29 konfransının Azərbaycanda keçirilməsinin lehinə səs verib".

Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə əsasən öz ərazisində antiterror tədbirləri keçirməklə separatizmin kökünü kəsməsinin hələ də bəzi Qərb dövlətlərini, xüsusən də Fransanı ciddi narahat etdiyini vurğulayan deputat əlavə edib: "Fransa ölkəmizə qarşı qərəzli bəyanatlar yayır, çirkin əməllərindən əl çəkmir. Bu gün Qərbdəki bəzi dövlətlər Azərbaycana qarşı "ikili standart" siyasəti həyata keçirirlər. Amma çirkin niyyətlərinə çata bilmirlər. Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan Qoşulmama Hərəkatına artıq 4 ildir sədrlik edir. Qoşulmama Hərəkatına sədrliklə bağlı Azərbaycanı yekdilliklə dəstəkləyən dövlətlərin haqq işinə ölkəmiz yardımını əsirgəmir".

Kamilə Əliyeva onu da bildirib ki, Azərbaycan irimiqyaslı və nüfuzlu beynəlxalq tədbirləri hər zaman yüksək səviyyədə təşkil edib. Təsadüfi deyil ki, belə qlobal tədbirlərdə iştirak edən nümayəndələr Azərbaycanın təşkilatçılığını həmişə yüksək qiymətləndiriblər. Ona görə COP29 konfransının da ən yaxşı şəkildə təşkil olunacağına, ölkəmizə gələcək on minlərlə qonağın məmnun qalacağına şübhə yoxdur. Gələn il bütün dünyanın gözü Azərbaycanda olacaq.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.-2023.- 20 dekabr (№278).- S.5.